**Bəşirova Gülşən**
Filologiya üzrə fəlsəfə doktoru, dosenti
Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinin
**Баширова Гюльшан**
Доктор философии по филологии, доцент
Азербайджанская Высшая Военная Школа
имени Гейдара Алиева
**Bashirova Gulshan**
Doctor of philosophy, associate professor in philology
Azerbaijan Higher Military School named
after Heydar Aliyev

# FİRİDUN BƏY KÖÇƏRLİ RUS YAZIÇILARI HAQQINDA
# ФИРИДУН БЕК КОЧАРЛИ О РУССКИХ ПИСАТЕЛЯХ
# FIRUDIN BEY KOCHARLI ABOUT RUSSIAN WRITERS

**Annotasiya.** Məqalədə P. Çexov, N. V. Qoqol və b. rus yazıçıları haqqında Firidun Bəy Köçərlinin müxtəlif illərdə yazdığı və o dövrün mətbuatında çap etdirdiyi məqalələrinə diqqət yetirilir. Bu əsərlərdə irəli sürülən ideya və fikirlərin həmin dövrdəki Azərbaycan gercəkliyi ilə əlaqələri ön plana çəkilir.

**Açar sözlər:** abid (ibadətlə məşğul olan); bimisl (qiymətsiz); əhli-kəmal (bilik əhli, ağıllı); ədibanə (ədəbli və tərbiyəli adama yaraşan tərzdə); fəna (pis); idilliya (təbiət qoynunda dinc həyat); ima (him-cimlə); kəlam (söz, danışıq); kəsbi-maarif (təhsil almaq); missioner (göndərmə, tapşırıq); nisf (yarım, yarımçıq); nücəba (nəcib adamlıar, əsilli adamlar); rəiyyət (bir dövlətin vətəndaşları); təqdir (bəyənmə); vəsf qılmaq (tərifləmək).

**Аннотация.** Статья посвящается произведениям Фирудин Бека Кочарли о П. Чехове, Н. В. Гоголе и других русских писателях, написанных им в разные годы и изданные в прессе того времени. Отношения и взаимосвязи

идей и мыслей, рассматриваемые в этих произведениях, выдвигаются на первый план с реалиями Азербайджана того времени.

**Ключевые слова:** богослужитель; бесценный; умные люди; как подобает воспитанному человеку; плохой; идиллия (мирная  жизнь на лоне природы); мимика; изречение; получить образование; миссионер; половина, незаконченное; люди благородного происхождения; подданные (граждане одного государства); одобрение; хвалить, восхвалять.

**Annotation.** The article is dedicated to the works of Firudin Bey Kocharli about P. Chexov, N. V Gogol and other Russian writers, written in different years and published in the press of the time. The relations of thoughts and ideas discussed in these works, come to the fore with the realities of Azerbaijan of that time.

**Key words :** worshipper; priceless knowledgeable; as an educated people; the bad; idyllic (peaceful life in nature); hint; the statement; getting education; missionaries; a half, unfinished; noble; common (the citizens of one state); appreciation; to praise.

Firidun bəy Köçərli (1863-1920)  ədəbi tənqidi məqalələrilə böyük bir xəzinə yaratmışdır. Onun bu mövzudakı məqalələri elmi sanbalı, təfəkkür dərinliyi, əhatəliliyi və yeniliyi cəhətdən çox qiymətli əsərlərdir. Dövrünün elə bir mühüm ədəbi-mədəni hadisəsi olmaz ki, F.Köçərli ona dərindən nüfuz etməsin, öz sözünü deməsin.

Dövrünün (XIX əsrin sonu, XX əsrin əvvəlləri) böyük və kiçik ədəbi hadisələrini diqqətlə izləyən F.Köçərlinin müxtəlif mətbuat orqanlarında çap olunmuş məqalələrinin ana xəttini xalqının mənafeyi, onun maariflənməsi kimi problemlər təşkil edir.

"F.Köçərli dövrünün qabaqcıl bir ziyalısı kimi dünya və rus ədəbiyyatının təcrübəsindən istifadə edir, xalqın həyatında incəsənətin, ədəbiyyatın rolunu yüksək qiymətləndirirdi (2, 379). Bu cəhətdən onun  həmin illərdə çap etdirdiyi məqalələri içərisində rus yazıçı və şairlərinin həyat və yaradıcılığına həsr etdiyi xeyli sayda

məqaləsi vardır. Məqalələrin bir qismi həmin yazıçıların yubileylərinə, digər qismi ədəbi yaradıcılıqlarına həsr edilmişdir. Digər məqalələr isə maarif və mədəniyyətə, təlim-tərbiyəyə aid fikirlərini oxuculara daha ətraflı çatdırmaq üçün istifadə etdiyi əsərlərdir.

F.Köçərlinin Anton Pavloviç Çexovun (1860-1904) vəfatı münasibətilə 16 iyul 1904-cü ildə "Şərqi-Rus" qəzetində çap etdirdiyi məqaləsi maraqlıdır. Burada A.P.Çexov "təbii, mətin, qələmi ötkün və dili şirin bir ədibdir".

F.Köçərli qeyd edir ki, A.P.Çexov özünün müxtəsər və qısa hekayələrində rus millətinin hər bir sinfinin əhvalatını yazıb, eyib və qüsurlarını iztehza və kinayə ilə zərif şəkildə göstərir. Kiçik və məzmunlu hekayələrilə məişət hadisələrini yazıb, demək olar ki, onun şəklini çəkib bir tərəfdən oxucularını həm sevindirib, həm də kədərləndirib.

O zaman A.P.Çexovun əsərlərinin 12 cilddə çap olunduğunu söyləyən ədib Çexovun komediyalarının da olduğunu bildirir. Qəzetdə özünün tərcüməsində yazıçının "At familiyası" əsərinin Azərbaycan dilinə tərcüməsini də verir.

F.Köçərli 1903-cü ildə çap etdirdiyi "Azərbaycan ədəbiyyatı" adlı genişhəcmli məqaləsində diqqəti Azərbaycan yazıçı və şairlərinin rus yazıçılarından etdiyi tərcümələrə cəlb edir. Məlum olur ki, artıq həmin dövrdə A.S.Puşkindən: "Dubrovski" və "Çöl xanımı" povestlərini M.H.Əfəndiyev, "Torçu və balıq", "Oleq haqqında mahnı" əsərini F.Köçərli və şairin bir çox əsərlərini Əhməd Bəy Cavanşir tərcümə etmişlər.

M.Y.Lermantovdan: "Mtsıri", "Mühasirə", "Üç xurma ağacı", "Terekin hədiyyələri", "Hacı Abrek" və bir çox xırda şeirləri Əhməd Bəy Cavanşir, "Yel gəmisi" əsərini isə Əsgərağa Adıgözəlov tərcümə etmişlər.

N.V.Qoqoldan: "Müfəttiş" əsərini Nəriman Nərimanov tərcümə etmişdir.

L.N.Tolstoydan: "Əvvəlinci şərabçı" əsərini S.M.Qəniyev və "Tənbəkinin və şərabın zərəri barəsində" əsərini F.Köçərli tərcümə etmişdir.

V.A.Jukovskidən: "Yatmış şahzadə", "Yay axşamı" və bir çox başqa şeirlərini Əhmədbəy Cavanşir tərcümə etmişdir.

İ.A.Krılovdan: bir çox təmsilləri Xan Qaradağski və Rəşid Bəy Əfəndiyev tərcümə etmişlər.

Qeyd edək ki, F.Köçərli əsərlərində A.S.Puşkinin, M.Y.Lermantovun, L.N.Tolstoyun, İ.A.Krılovun, N.A.Nekrasovun və digər rus yazıçı və şairlərinin əsərlərinə dəfələrlə müraciət etmiş, onlar haqqında geniş və ətraflı məqalələr yazmışdır.

F.Köçərli "Qaranlıqda qalanlarımız" ("İrşad" qəzeti, 2 mart 2006-cı il) adlı məqaləsində ciddi bir problemə toxunur. İ.A.Krılovun "Ağacın yarpaqları və kökləri" adlı təmsilinə müraciət edir. Əsərin qısa məzmunu budur ki, ağacın yarpaqları özlərini tərifləyir, ancaq kökləri yada salmırlar. Bu zaman köklər bildirir ki, siz hər yerdə təriflənirsiniz, amma biz həmişə qaranlıqda işləyib sizə həyat veririk. Biz olmasaq nə ağac salamat qalar, nə də sizdə lətafət və təravət olar. Ədib bildirir ki, bu təmsilə müraciət etməkdə məqsədi budur ki, "... bizim müsəlmanların nücəba və əhli-kəmalı öz kökləri və rişələri mənziləsində olan rəiyyət tayfasını, əkinçi və cütçü qardaşlarını unudub, bilmərrə onların qeydinə qalmazlar".

1906-cı ilin 2 mart tarixində "İrşad" qəzetində çap olunmuş "İdarədən" adı altında bir qeyddə həmin məqaləyə aid aşağıdakılar yazılıb: "Əfəndim, bədbəxt kəndçilərimiz xüsusunda qələminizdən tökülən göz yaşları hər bir daş ürəklinin ciyərindən bir ah qoparmağa şayandır... Darülmüəllimlərdə kəsbi-maarif etmiş cavanlarımızın kəndlərdən qaçmağına gəlincə, bu özü kəndçilərdən ötəri bir xoşbəxtlikdir. Mironov və Smirnov kimi missionerlərin təhti-idarəsində bulunan darülmüəlliminlərdə kəsbi-maarif deyil, ruslaşmış və ruslatmaq sənətini kəsb etmiş cavanların kəndçilərimizin qaranliq olmuş olsa da idilliyaya mənsub olan həyat və məişətlərini bulandırmaları heç bir halda arzu olunmasın gərək". Burada sənətkar bir qədər aşkar və gizli çəkildə rusların ruslaşdırma siyasətinə qarşı çıxır. Həmçinin darülmüllimlərdə təhsilin birtərəfli olduğuna təəssüflənir.

Böyük sənətkarın N.V.Qoqolun (1809-1852) anadan olmasının 100 illiyi münasibətilə 1909-cu ilin mart ayının 18 və 19-da "Tərəqqi" qəzetində çap olunmuş məqaləsi xüsusilə diqqəti cəlb edir.

F.Köçərli bu genişhəcmli məqaləsində bildirir ki, A.S.Puşkin və N.V.Ooqoldan sonra digər yazıçı və şairlər gördüklərinin surətini və şəklini mahir nəqqaş kimi eynilə çəkib, bütün aləmə göstərib deyirlər: "Baxın, görün! Budur bizim millət; bu sayaqdır onun diriliyi və dolanacağı; budur onun halı , fikirləri, hissiyyatı və xəyalatı!"

Burada yazıçının uşaqlıq və gənclik illəri, A.S.Puşkinlə görüşməsi və bu hadisənin onun bir yazıçı kimi yetişməsində rolu şərh olunur. Sonra ədib, əsasən, Qoqolun "Müfəttiş" əsəri üzərində ətraflı dayanır. Əsərdəki məmurları - qalabəyi Anton Antonoviçi (o hamını aldadır, onun kimi rüşvətxor, rəzil, tənbəl, axmaq, səfeh, əxlaqsız, qorxaq, gülünc, bədbəxt adam yoxdur), hakim Lyapkin-Tyapkini (məhkəmə işlərini unudub, yox ağlından dəm vurur, allaha inanmır, kilsəyə getmir, şam yandırmır və s.), xəstəxananın müdiri Zemlyaniki (onun günahları ucundan xəstəxanadakı xəstələr milçək kimi qırılır, xəstələr üçün dövlətin verdiyi pulları yeyib dağıdır, heç kimin qeydinə qalmır), poçt müdiri Şpekini (sadədildir, poçta salınan kağızları açıb oxuyur və bundan ləzzət alır), şəhər məktəbinin müdiri Xlepovu (qorxaq və hər şeydən ehtiyat edən bir adamdır), həkim Xristian İvanoviçi (o, rus dilini bilmir, xəstələrə ucuz dərman verir) və Zemlyanikanın dediyi kimi: "Avam adam naxoşluqdan sağalsa, dərmansız da sağalacaqdır, ölsə, dərman versən də öləcəkdir" kimilərinin iç dünyasını açır.

Dobçinski və Bobçinski məmur olmasalar da onlar bu quldurların himayəsində gəzib dolanır, harada aş olsa, orada başdırlar. Haradan bir xəbər eşitsələr, birinin üstünə beşini qoyub ötənə, keçənə xəbər verirlər.

Bu avaralar Peterburqdan gəlmiş cavan Xlestakovu müfəttiş hesab edirlər. Köçərli əsərin əsas qəhrəmanı olan Xlestakovun (o, özünü öyür, hərdəmxəyaldır, yalan danışır, acığı tez tutub, tez də soyuyur, boş yerə çoxlu pul xərcləyir, arsız, boşboğaz və yüngül adamdır) xarakter cizgilərini rəssam dəqiqliyi ilə çəkir.

Qalabəyi Xlestakovu öz evinə gətirir. O, əvvəl qalabəyinin arvadına aşiq olur, sonra qızına elçi düşür və özündən ağıllı olan nökəri Osipin məsləhətilə qaçıb aradan çıxır.

Sonda F.Köçərli yazır: "Onun (Qoqolun) ədibanə vəsf qıldığı rüşvətxor, tamahkar, tənbəl, bacarıqsız, öz vəzifəsini anlamayan, camaata zülm edən və həməvəxt öz nəfslərini güdən çinovniklər ilə bizim uyezdlər və mahallar doludur".

F.Köçərlinin Qoqolun "Ölü canlar" ("Fövt olmuş nüfus") əsəri haqqında da maraqlı qeydləri vardır.

F.Köçərlinin rus sənətkarlarının yaradıcılığına müraciəti heç də təsadüfi deyildi. O, "Puşkin, Qoqol irsindən söhbət açarkən Mirzə Fətəli realizmini yada salır, oxucunun nəzərini doğma ədəbiyyatın tarixinə və bu gününə yönəldir, həyat və sənət həqiqətini ona başa salmaq istəyirdi" (2, 380)

F.Köçərlinin "Dünyada bəla nədən törəyir?" adlı məqaləsi "Tərəqqi" qəzetinin 26 mart 1909-cu il tarixli sayında çap edilmişdir. Ədibin L.N.Tolstoyun bu əsərinə müraciət etməkdə məqsədi insanların daxilində olan qorxaqlığı onların qəlbindən çıxarmaq, qorxuya əsas səbəb olan savadsızlığa, elmsizliyə və avamlığa qarşı mübarizə aparmaq idi.

Hekayədə bildirilir ki, bir abid (ibadətlə məşğul olan) adamlardan qaçıb meşədə ibadətlə məşğul olur. Meşənin heyvanları ondan qorxmayıb başına cəm olur. Abid onların dilini, onlar da abidin dilini başa düşürlər. Bu zaman qarğa, göyərçin, ilan və maral oraya yığılıb aralarında söhbət edirlər. Bəla və günahın haradan törəndiyinə cavab tapmağa çalışırlar. Qarğa bəla və günahın aclıqdan, göyərçin məhəbbətdən, ilan qəzəb və şərdən törəndiyini bildirir. Maralsa deyir ki, əgər ürəkdə qorxu və vahimə olmasa hər şey yaxşı olar, işlər öz qaydası ilə gedər.

F.Köçərli bu hekayəyə istinadən bildirir ki, elmsizlikdən və avamlıqdan müsəlmanların ürəyinə qorxu bərk sirişk edibdir. Cəhl və nadanlıq onları cürətsiz, hünərsiz və bir növ üftadə (biçarə), xar və zəlil edibdir. Avamlığımızın ucbatından vətənimizdə özümüzü qəriblər, evimizdə yadlar kimi saxlayırıq.

F.Köçərli daha sonra yazır: "Bu fəlakətlərin tamamisinə səbəb haman maralın canına sirişt edən qorxudur ki, biz müsəlmanların bədəninə də analarımızın südü ilə giribdir. Söz yox ki, hər şeydən qorxan, həmişə qorxu altında ömürlərini çürüdən, dilsiz-ağılsız, fəqir və yazıq anaların südünü əmən balalardan qorxaq, aciz və bacarıqsız nəsl əmələ gələcəkdir".

"Həqiqi gözəllik və hərəkətsiz nisfimiz" məqaləsi də "Tərəqqi" qəzetinin 26 aprel, 29 iyul, 4 avqust 1909 -cu il saylarında çap olunmuşdur. Rus şairi N.A.Nekrasov fəna halında yaşayan rus qadınlarını 3 qismə bölür: Birincilər, anadan kəniz və ixtiyarsız doğulanlar; ikincilər, qul kişiyə arvad olanlar; üçüncülər, qul anası olanlar və qul övladına baxanlardır.

Böyük sənətkar yuxarıda deyilənlərə istinad edərək ailə münasibətlərinə toxunur, möhkəm ailənin, xüsusilə ata-ananın uşaqların təlim-tərbiyəsində əvəzsiz rola malik olduğunu bildirir.

Böyük alim, xalqımızın elm və təhsili yolunda bütün varlığı ilə yorulmadan mübarizə aparmış Firidun bəy Köçərlinin ədəbi irsi o qədər zəngindir ki, bitib-tükənən deyil. Orada bu günümüz və gələcəyimiz üçün lazımi biliklər əldə etmək bundan sonra da mümkün olacaqdır.

Orada bu günümüz və gələcəyimiz üçün lazımi biliklər əldə etmək bundan sonra da mümkün olacaqdır.

## Ədəbiyyat

1. Firidun Bəy Köçərli.Seçilmiş əsərləri. Bakı, AEA, 1963, 342 s.
2. Mir Cəlal, Firidun Hüseynov. XX əsr Azərbaycan ədəbiyyatı. Bakı, Maarif, 1974, 392 s.
3. Bəkir Nəbiyev. Firidun Bəy Köçərli. Bakı, Gənclik, 1984, 228 s.